# Möhtəşəm uğurların başlanğıc günü



**Tarixin həlledici anlarında xalqın iradəsini ifadə edən liderlər dövlətin və millətin taleyində mühüm rol oynayırlar. Belə şəxsiyyətlərdən biri də müasir Azərbaycan dövlətinin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. Ulu Öndərin müdrikliyi, siyasi uzaqgörənliyi və sarsılmaz iradəsi sayəsində ölkəmiz dərin tənəzzüldən çıxaraq davamlı inkişaf yoluna qədəm qoymuşdur.**

1991-ci ilin oktyabrında Azərbaycanın dövlət müstəqilliyi elan olunsa da, siyasi böhran, hakimiyyət uğrunda mübarizə və daxili çəkişmələr ölkəni xaosa sürükləmişdi. Dövlət institutları iflic vəziyyətinə düşmüşdü. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqların ard-arda işğalı və minlərlə günahsız insanın qətlə yetirilməsi, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi gənc müstəqil dövlətin ciddi təhlükə qarşısında olduğunu göstərirdi.

Belə mürəkkəb geosiyasi proseslər fonunda - 1993-cü ildə Azərbaycan vətəndaş müharibəsi təhlükəsi ilə üzləşdi. Bu cür şəraitdə xalq bütün ümidlərini böyük siyasi iradəyə və zəngin idarəçilik təcrübəsinə malik olan Ulu Öndər Heydər Əliyevə bağladı. Xalqın təkidli tələbi ilə Heydər Əliyev 1993-cü il iyunun 9-da Bakıya dəvət olundu və iyunun 15-də Ali Sovetin Sədri seçildi. Ulu Öndərin siyasi arenaya qayıdışı ilə ölkədə sabitlik bərpa olundu, vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı. Milli Qurtuluş Günü kimi tarixə düşən 15 iyun ölkəmizin inkişaf yolunda taleyüklü bir dönüş nöqtəsinə çevrildi. Bu əlamətdar gün eyni zamanda xalqın öz gələcəyini qorumaq məqsədilə nümayiş etdirdiyi ümummilli həmrəylik və liderinə olan dərin inamla səciyyələnir.

1993-cü il oktyabrın 3-də keçirilən prezident seçkilərində xalqın mütləq əksəriyyəti Heydər Əliyevə səs verdi. Bu, xalqın Ümummilli Liderə olan inamı, ehtiram və etimadının təzahürü idi. Ulu Öndərin Prezident kimi fəaliyyətə başlaması ilə dövlət idarəçiliyində köklü dəyişikliklərə start verildi, bir sahələrdə islahatlar aparıldı. Heydər Əliyevin rəhbərliyi ilə görülən tədbirlər nəticəsində dövlət strukturları möhkəmləndi, hüquq-mühafizə orqanlarının fəaliyyəti bərpa edildi, qanunların aliliyi təmin olundu.

1994-cü il sentyabrın 20-də Bakının "Gülüstan" sarayında Azərbaycanın enerji tarixində dönüş nöqtəsi olan mühüm hadisə baş verdi. Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi və uzaqgörənliyi sayəsində dünyanın aparıcı neft şirkətləri ilə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanı qlobal enerji bazarının fəal iştirakçısına çevirdi. Bu müqavilə təkcə neft hasilatı və ixracı ilə bağlı texniki-iqtisadi sənəd deyil, eyni zamanda dövlətimizin beynəlxalq nüfuzunu möhkəmləndirən, ölkənin suverenliyini və müstəqil enerji siyasətini tanıdan strateji nailiyyət idi.

"Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın neft və qaz ehtiyatları beynəlxalq sərmayələr hesabına iqtisadiyyata cəlb olundu, bu resurslar real milli sərvətə çevrildi. Yeni neft strategiyası ölkəmizə investisiya axınını təmin etdi, nəqliyyat və infrastruktur layihələrinin icrası sürətləndi. Dövlətimizin Cənubi Qafqazda etibarlı tərəfdaş, sabit və təhlükəsiz enerji təchizatçısı kimi mövqeyi formalaşdı. Bu strateji addım ölkəmizin iqtisadi dirçəlişinə təkan verdi, siyasi müstəqilliyini daha da möhkəmləndirdi və gələcək illərdə reallaşdırılacaq transmilli layihələr üçün etibarlı zəmin yaratdı.

Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanın enerji ehtiyatları yalnız iqtisadi inkişafın mühüm mənbəyinə çevrilməklə kifayətlənmədi, həm də ölkənin dünyada gedən ictimai-siyasi proseslərdə rolunu gücləndirən strateji vasitə oldu. Onun təşəbbüsləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi qlobal əhəmiyyət daşıyan layihələr reallaşdırıldı. Bu layihələr Azərbaycanın Avropa ilə Asiyanı birləşdirən mühüm enerji və nəqliyyat dəhlizi statusunu möhkəmləndirdi. Nəticədə ölkəmiz həm regionun enerji və logistik mərkəzinə çevrildi, həm də qlobal enerji təhlükəsizliyinin təminatında etibarlı tərəfdaş və aparıcı iştirakçı kimi tanındı. Bu uğurlar Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsinə və geosiyasi mövqeyinin möhkəmlənməsinə mühüm töhfə verdi.

Güclü dövlətin mövcudluğu güclü və mütəşəkkil ordu ilə təmin oluna bilər. Bu strateji yanaşma dövlət siyasətində prioritet istiqamətlərdən birinə çevrildi. Məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə milli ordu quruculuğuna sistemli və ardıcıl şəkildə başlanıldı. Silahlı Qüvvələrin strukturlaşdırılması, komandanlıq sisteminin təkmilləşdirilməsi, döyüş hazırlığının artırılması və maddi-texniki təminatın gücləndirilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirildi. Ordu sıralarına peşəkar hərbi kadrların cəlb olunması, təlimlərin və hərbi təhsilin keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, vətənpərvərlik ruhunun möhkəmləndirilməsi də əsas diqqət mərkəzində idi. Bu tədbirlər nəticəsində qısa müddət ərzində döyüş qabiliyyətli, intizamlı ordu formalaşmağa başladı. Orduda nizam-intizam gücləndi, xalqın Silahlı Qüvvələrə olan inamı artdı, cəmiyyətin hərbi sahəyə yanaşmasında köklü dəyişikliklər baş verdi.

Ümummilli Lider Heydər Əliyevin gərgin səyləri sayəsində 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi. Konstitusiya ali hüquqi sənəd olaraq dövlət quruculuğuna və vətəndaş cəmiyyətinin formalaşmasına əsaslı zəmin yaratdı. Hakimiyyət bölgüsü, insan hüquq və azadlıqları, sosial təminat prinsipləri bu sənəddə öz əksini tapdı. Ümumiyyətlə, Konstitusiyanın qəbulu hüquq sisteminin inkişafına təkan verdi, qanunvericiliyin müasir standartlara uyğunlaşdırılması prosesinə başlanıldı.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət strategiyası milli maraqlara əsaslanan, balanslaşdırılmış və çoxşaxəli əməkdaşlıq prinsipinə söykənən uzaqgörən bir kurs idi. Bu strateji xətt Azərbaycanın beynəlxalq münasibətlər sistemində özünəməxsus yer tutmasına, etibarlı və söz sahibi bir tərəfdaş kimi tanınmasına şərait yaratdı. Bu siyasətin əsas xüsusiyyətlərindən biri nüfuzlu beynəlxalq qurumlarla əlaqələrin ardıcıl şəkildə genişləndirilməsi oldu. Bu, həm ölkəmizin beynəlxalq nüfuzunun artmasına, həm də milli maraqların qorunmasına mühüm töhfə verdi. Xarici siyasətdə praqmatizm, ardıcıllıq və çevik diplomatik yanaşma ölkəmizin beynəlxalq münasibətlər sisteminə uğurla inteqrasiya olunmasına zəmin yaratdı. İkitərəfli və çoxtərəfli əlaqələrin inkişaf etdirilməsi nəticəsində Azərbaycan regionda və onun hüdudlarından kənarda etibarlı tərəfdaş kimi qəbul edildi. Eyni zamanda beynəlxalq təşkilatlarda fəal mövqe tutaraq qlobal çağırışlara münasibətdə prinsipial və ardıcıl mövqe nümayiş etdirdi.

Heydər Əliyevin rəhbərliyi ilə gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, onların cəmiyyətin fəal üzvünə çevrilməsi üçün də məqsədyönlü siyasət həyata keçirildi. İdmanın kütləviləşdirilməsi, sağlam həyat tərzinin təbliği və idman infrastrukturlarının yaradılması istiqamətində əhəmiyyətli layihələr reallaşdırıldı. Müasir idman qurğularının tikintisi, idmançılara dövlət dəstəyinin gücləndirilməsi və onların beynəlxalq yarışlarda iştirakının təmin edilməsi milli ruhun yüksəlməsinə, ölkəmizin beynəlxalq idman arenalarında tanınmasına güclü təkan verdi.

Bir sözlə, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan sabitlik, iqtisadi inkişaf və ordu quruculuğu siyasəti gələcəkdə Azərbaycanın qalib dövlətə çevrilməsinin möhkəm təməlini formalaşdırdı.

Ulu Öndərin uzaqgörən siyasi kursu bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl və uğurla davam etdirilir. Məhz bu qətiyyətli liderlik sayəsində Azərbaycan 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazandı, şanlı ordumuz düşməni darmadağın edərək uzun illər işğal altında qalmış torpaqları azad etdi. 2023-cü ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində isə ölkəmizin suverenliyi tam bərqərar olundu, konstitusiya quruluşu bütün ərazilərimizdə təmin edildi. Bu tarixi Qələbə Milli Qurtuluşun bəhrəsi, Zəfər isə Ulu Öndərin qurduğu güclü dövlətin və sarsılmaz xalq-iqtidar birliyinin parlaq təntənəsidir.


***Səbinə XASAYEVA,***
***YAP Gənclər Birliyinin üzvü,***
***Milli Məclisin deputatı***


Azərbaycan.- 2025.- 14 iyun (№ 121).- S.5.